# Aprelin 28-də Azərbaycanın paytaxtında III Qlobal Bakı Forumu işə başlayıb

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib.*

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail SERAGELDIN** Forumu açaraq dedi:






—Zati-aliləri.

Xanımlar və cənablar sabahınız xeyir olsun.

Mən böyük şərəf hissi ilə Prezident İlham Əliyevin dəvətini qəbul edib buraya gəlmişəm.

Bugünkü görüşümüzün məqsədi yeni formalaşan dünya durumunda etimadın qurulmasına aiddir. Təbii ki, İkinci Dünya müharibəsindən sonra yaranmış vəziyyət və həmin vəziyyətdən sonrakı durum necə olmalıdır? Bizim qarşımızda problemlər var, çağırışlar mövcuddur, dövlətlər, xalqlar arasında etimad məsələləri gündəliyimizdə vacib yer tutur. Buna görə də, biz bu gün gündəlikdə duran həmin məsələləri fəal müzakirə etməliyik. Biz indi özümüz üçün müzakirələr aparmalıyıq ki, hansı yeni durum olmalıdır? Henri Kissincer əslində bu sahədə görüləcək tədbirlərin çərçivəsinin hüdudsuz olduğunu qeyd etmişdir. Biz müəyyənləşdirməliyik ki, bir siyasi sistemin digər siyasi sistemə mənfi təsirinin qarşısının alınması hansı tədbirlərə əsaslanmalıdır? Bu məsələ bu gün bizi narahat edir. Buna görə də aydınlaşdırmalıyıq ki, bu gün dünya durumunda məhz hansı yeni sərhədlər, üfüqlər açılır.

Bu gün Bakıya yüksək səviyyəli nümayəndələr, təmsilçilər təşrif gətiriblər. Bu, bizim üçün böyük şərəfdir. Biz Bakı Forumumuzu artıq illik əsaslarla keçiririk. Mən indi böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə söz vermək istəyirəm.

Dövlətimizin başçısı Forumun rəsmi açılışında nitq söylədi.

**AZƏRTAC.**

# Görkəmli həkim—sədaqətli ömür-gün yoldaşı

27 aprel 2015-ci il tarixdə Heydər Əliyev mərkəzində YAP Qəbələ Rayon Təşkilatının Qadınlar Şurası görkəmli elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibətilə tədbir keçirmişdir.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınların bir qrupu, YAP Qəbələ Rayon Təşkilatı Qadınlar Şurasının üzvləri iştirak edirdi.

Tədbiri girş sözü ilə rayon qadınlar şurasının sədri Arifə Bayramova açdı. O, görkəmli alim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın həyatı və elmi fəaliyyəti haqqında məlumat verdi. Natiq qeyd etdi ki, Zərifə xanım Əliyeva tibb elminin inkişafında göstərdiyi xidmətlərə görə görkəmli tibb tədqiqatçıları tərəfindən dünya səviyyəli alim kimi qəbul edilmişdir.

Zərifə xanım Əliyeva Ulu Tanrının ona bəxş etdiyi ən yüksək mənəvi xüsusiyyətlərə malik olan bir şəxsiyyət idi. Neçə-neçə insanın gözünə nur gətirən, geniş biliyə malik olan və peşəsinə hədsiz məhəbbəti ilə seçilən Zərifə xanımın bir çox əsərləri bu gün də oftolmoloqların stolüstü kitabına çevrilmişdir.

Qəlbən təmiz, ruhən nəcib olan bu insan sözün həqiqi mənasında peşəsinin vurğunu idi. Çox səmimi, mehriban, qayğıkeş bir insan kimi bir dəfə ünsiyyətdə olanlar onu unuda bilmirdilər. Professor O. P. Dobronuslova yazırdı: "İlk görüşümüzdə Zərifə Əziz qızı səmimiyyəti və təbii davranışı ilə məni elə ovsunladı ki, mənə elə gəldi ki, onu lap çoxdan tanıyıram. O, təkcə görkəmli alim, istedadlı pedaqoq və tərbiyəçi, fəal xadim deyildi, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli qadın, ana, nənə idi, qeyri-adi şəxsiyyət idi".



Doğrudan da belədir. Bu böyük şəxsiyyət onunla ünsiyyətdə olan insanların yaddaşında yüksək vətəndaşlıq, humanizmin və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Tale Zərifə xanımın qarşısına Heydər Əliyev kimi sədaqətli, mənəvi xüsusiyyətlərə malik bir insan çıxartdı. Müstəqil Azərbaycanın qurucusu, bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmiş Heydər Əliyev Zərifə xanımı hədsiz məhəbbətlə sevdi, ona dəyər verdi. Sonsuz məhəbbət hissi ilə birbirinə bağlanan bu insanlar ruhən də çox yaxın idilər. Zərifə xanım dahi siyasi xadim olan Heydər Əliyevə mənəvi dayaq, əsl dost olmuşdur.

Ulu öndər Heydər Əliyevin düz 14 il əvvəl, 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi bir fikri xatırlatmaq istəyirəm: "...Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır."

Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir anadır.

Zərifə Əliyeva insanlara xoş əməlləri ilə lazım olan mənalı həyat yaşayıb.

Ulu öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım mənə xoşbəxtlik bəxş etmişdir.

Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür".

Tədbirdə həkim Şəhla Məlikova çıxış etdi. O, qeyd etdi ki, akademik Zərifə xanım Əliyeva məktəbi Azərbaycan tibb elminin tarixində böyük bir mərhələ təşkil edir.

Tədbirdə qadınlar şurasının üzvlərindən Sədaqət Bayramova, Rəna Mahmudova, Xəyalə Balaqədirova çıxış etmiş və Zərifə xanım Əliyevanın görkəmli alim, nəcib insan, mehriban ana, sədaəqtli ömür-gün yoldaşı kimi həyat və fəaliyyəti barədə danışmışlar.

Şəhər 3 saylı tam orta məktəbin şagirdləri Zərifə xanıma həsr olunmuş şerlərdən ibarət kompazisiya ilə çıxış etmişlər.

Tədbirin sonunda Zərifə xanım Əliyevaya həsr olunmuş filmlərdən fraqmentlər nümayiş etdirilmişdir.

**Foto S. Umuyevindir.**

**YAP QƏBƏLƏ RAYON QADINLAR ŞURASI.**